**AQTA ilə əməkdaşlıq fəaliyyətləri**

- AQTA EPPO üzrə ölkəmizin rəsmi əlaqələndirici qurumu olaraq bu platformada: beynəlxalq fitosanitar standartların hazırlanmasında iştirak edir; məlumat mübadiləsini həyata keçirir; milli fitosanitar sistemin beynəlxalq tələblərə uyğunlaşdırılmasına töhfə verir.
- 2024-cü il 23 sentyabr tarixində Bakıda EPPO İcraiyyə Komitəsinin iclası, 24-25 sentyabr tarixlərində isə EPPO Şurasının 74-cü sessiyası keçirilmişdir. Agentlik və EPPO-nun birgə təşkilatçılığı ilə təşkil edilən tədbirdə təşkilata üzv dövlətlərdən olan nümayəndələr iştirak etmişdir. Sessiyada təşkilatın 5 il müddətinə seçilən baş direktoru vəzifəsinə seçkilər keçirilmiş və yeni Baş direktoru Olqa Lavrentjeva seçilmişdir.
- 74-cü sessiya çərçivəsində EPPO-nun yeni seçilmiş Baş direktoru Olqa Lavrentjeva və EPPO Şurasının digər iştirakçılarının AQTİ-yə səfəri təşkil olunmuşdur. Qonaqlar İnstitutun Kompleks Tədqiqatlar, Mərkəzi Fitosanitar və Milli Referens laboratoriyalarına baxış keçirmiş, laborator sınaqların həyata keçirildiyi otaqlara baş çəkmiş, sınaqların aparılması prosesini izləmiş, cihaz və avadanlıqlara baxmışdır. Eləcə də bitki mənşəli qida məhsullarının təhlükəsizlik və keyfiyyət göstəriciləri üzrə həyata keçirilən laborator müayinə üsulları ilə tanış olmuş, qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparmışdırlar.